Ədəbiyyat qəzeti
12 dekabr 2020-ci il 21

## Zemfira MƏHƏRRƏMLİ - 65



Hörmətli Zemfira Məhərrəmli!

Sizi - tanınmış yazıçı-publisisti yubileyiniz münasibətilə təbrik edirik. Hələ ADU-nun (indiki BDU) Jurnalistika fakültəsində təhsil aldığınız illərdən ədəbi fəaliyyətə başlamısınız. İlk qələm təcrübəniz olan hekayələriniz, sənədli oçerkləriniz həmin illərin populyar mətbu nəşrlərində - "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində, "Azərbaycan qadını" jurnalında dərc edilirdi.

Ustad jurnalist Nəsir İmanquliyevin yaratdığı "Bakı" və "Baku" şəhər qəzetlərində 1978-ci ildən əmək fəaliyyətinə başlayaraq müxbir işləmiş, Elm, təhsil və mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışmısınız (1990-2003).

1991-ci ildən dəfələrlə "qaynar" nöqtələrdə olub, I Qarabağ müharibəsinin dəhşətləri, torpaqlarımızın bölünməzliyi uğrunda çarpışan oğul və qızlarımızın hünərini əks etdirən cəbhə reportajları dərc etdirmisiniz.

Qarabağ savaşı mövzusunda yazdığınız silsilə kitablarınızla haqq işimizi dünyaya çatdırırsınız. "Döyüşə qızlar gedir" (1997), "Karabağda savaş var" (İstanbul, "Turan" yayın evi (1999), "Qırx qız dastanı" (2003) ictimaiyyət arasında ciddi rezonans doğurub. Əsərləriniz rus, ingilis və türk dillərində də çap edilib. İngilis dilində nəşr olunan "Garabagh war witnessed by women" ("Qarabağ müharibəsi qadınların şahidliyi ilə", 2005) və Sankt-Peterburqda çapdan çıxmış "Карабахская война: сражались и женщины" (2005) kitablarınıza görə Beynəlxalq Avrasiya Mətbuat Fondunun "Qarabağ" Ali mükafatını almısınız. 2003-cü ildən üzvü olduğunuz AYB-nin Hərbi vətənpərvərlik bölməsində səmərəli fəaliyyətinizlə fərqlənirsiniz.

Yaradıcılıq uğurlarınıza görə Həsən bəy Zərdabi (1997), "Qızıl qələm" (1998), 2018-ci ildə AYB-nin Beynəlxalq Rəsul Rza mükafatına layiq görülmüsünüz. 2003-cü ildə "Pedaqoji mətbuatda tərbiyə problemi" mövzusunda dissertasiya müdafiə edərək, pedaqogika üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almısınız. 2003-2015-ci illərdə Ombudsman Aparatının İnformasiya və İctimaiyyətlə Əlaqələr sektorunun müdiri vəzifəsində çalışmış, Mətbuat Xidmətinin rəhbəri olmusunuz.

2015-ci ildə "Ömür bitər, yol bitməz..." kitabınız, habelə povest, hekayə, mənsur şeirlər və esselərinizdən seçmələrin toplandığı "Oyuncaq" adlı əsəriniz çap edilmişdir.

Türkiye İlim ve Edebiyat Eseri Sahipleri Meslek Birliği (İLESAM) kimi nüfuzlu beynəlxalq yaradıcılıq qurumunun üzvüsünüz. "Sonbaharın Ilgımları" adlı kitabınız (2017) Türkiyə türkcəsində işıq üzü görmüşdür.

"Qarabağ müharibəsi: zərif talelər" kitabınız (2018) oxucular tərəfindən rəğbətlə qarşılanmış, Bakıda, Tbilisidə və Ankarada təqdimat mərasimləri keçirilmişdir.

"Aranfilm"in istehsalı olan "Döyüşə qızlar gedir" filminin (2019) ideya və ssenari müəllifisiniz.

Təbrizin "Yaşar qələm" nəşriyyatında povest və hekayələrinizdən ibarət "Analıq haqqı" kitabınız (2018) çap edilmişdir.

Hörmətli Zemfira xanım! Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə cansağlığı, uzun ömür, yaradıcılığınızda uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**